**Daşkəsən Rayon İcra Hakimiyyəti yanında İctimai Şuranın**

**4 saylı protokolu**

**Daşkəsən şəhəri** **25 dekabr 2025-ci il**

**İştirak edirdilər:**

İctimai Şuranın üzvləri:

1. Həsənov Samir Fidail oğlu (İctimai Şuranın sədri);
2. Mustafayev Akif Vaqif (İctimai Şuranın sədr müavini);
3. Zeynalova Aygül Azad qızı (İctimai Şuranın katibi);
4. Məmmədova Gültəkin Vəli qızı;
5. Xəlilov Vüqar Müslüm oğlu.

Dəvət olunanlar:

"Qızıl Aypara" Cəmiyyətinin Daşkəsən rayon bölməsinin sədri Vasif Hüseynov; Daşkəsən rayon Mədəniyyət İşçiləri Həmkarlar İttifaqının Daşkəsən rayon komitəsinin sədri Mətanət Abdullayeva; Qarabağ Müharibəsi Əlilləri, Veteranları, Şəhid Ailələri İctimai Birliyinin Daşkəsən rayon filialının sədri Bakir Qurbanov

**İclasın sədri: S. Həsənov**
**İclasın katibi: A. Zeynalova**

**Gündəlik üzrə məsələ:**

1. 2025-ci ildə İctimai Şuranın fəaliyyəti haqqında hesabatın dinlənilməsi.
2. 2025-ci ildə görülən işlərin təhlili və qiymətləndirilməsi.
3. 2026-cı ildə qarşıda duran vəzifələrin müəyyənləşdirilməsi.

**Gündəlik səsə qoyuldu və yekdilliklə qəbul olundu.**
Lehinə: 5
Əleyhinə: 0
Bitərəf: 0

**Eşidildi:**

İclasa sədrlik edən İctimai Şuranın sədri Samir Həsənov iştirakçıları salamlayaraq iclasın gündəliyini təqdim etdi. Qeyd olundu ki, iclasın məqsədi İctimai Şuranın 2025-ci il fəaliyyətinin yekunlarını müzakirə etmək və 2026-cı il üçün fəaliyyət istiqamətlərini müəyyənləşdirməkdir.

1. İctimai Şura sədrinin müavini Akif Mustafayev 2025-ci il ərzində Şuranın fəaliyyəti barədə hesabat təqdim etdi. Hesabatda aşağıdakı məqamlar əks olundu:

1. Rayon ərazisində vətəndaş müraciətlərinin operativ həlli istiqamətində görülən işlər.
2. Sosial layihələrin təşkili və monitorinqi.
3. Yerli icra orqanları ilə əməkdaşlıq nəticəsində problemlərin həlli.
4. İctimai nəzarət və məlumatlandırma fəaliyyətlərinin genişləndirilməsi.

2. İclas iştirakçıları 2025-ci il ərzində həyata keçirilmiş tədbirləri təhlil edərək qeyd etdilər ki, İctimai Şura tərəfindən rayon sakinlərinin müraciətlərinə çevik cavab verilib. Sosial və humanitar layihələrin icrası yüksək səviyyədə təşkil olunub. Bəzi sahələrdə, xüsusilə gənclər və ətraf mühitin qorunması istiqamətində işlərin artırılmasına ehtiyac var.

3.İclasda qərara alıdı ki, 2026-cı ildə aşağıdakı istiqamətlər üzrə işlər prioritet olacaq:

1. İctimai nəzarətin gücləndirilməsi və vətəndaş müraciətlərinin daha effektiv həlli.
2. Sosial layihələrin daha geniş kütləyə çatdırılması.
3. Gənclər və qadınlar üçün təşəbbüslərin dəstəklənməsi.
4. Ətraf mühit və şəhərsalma sahəsində ictimai monitorinqin genişləndirilməsi.

Gündəlikdəki məsələ müzakirə edildikdən sonra səsə qoyuldu və yekdilliklə qəbul olundu.

**Daşkəsən Rayon İcra Hakimiyyəti yanında İctimai Şura qərara alır:**

**1.** 2025-ci ilin yekunlarına əsasən İctimai Şuranın fəaliyyəti qənaətbəxş hesab edilsin.

**2.** Daşkəsən Rayon İcra Hakimiyyəti yanında İctimai Şuranın 2026-cı il üçün fəaliyyət planı təsdiqlənsin.

**3.** İctimai Şura üzvləri rayon sakinlərinin müraciətlərinə daha sürətli cavab vermək üçün fəaliyyətlərini gücləndirsin.

**İclasın sədri:** **Samir Həsənov**

**İclasın katibi:** **Aygül Zeynalov**